# Mədəniyyət naziri Qəbələdə vətəndaşlarla görüşüb

***Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən hər ay şəhər və rayonlarda əhalinin qəbulu keçirilir. Mədəniyyət naziri Əbülfəs Qarayevin vətəndaşlarla növbəti görüşü iyunun 22-də Qəbələ şəhərində gerçəkləşib.***



Nazir Qəbələ Mədəniyyət Mərkəzində Ağsu, Qəbələ, Qobustan, İsmayıllı və Şamaxı rayonlarının sakinlərini qəbul edib.

Görüşdən öncə Əbülfəs Qarayev ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoyaraq xatirəsini ehtiramla yad edib. Nazir Mədəniyyət Mərkəzi ilə tanış olub.

Qəbulda vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri səslənib.

Qəbələdən qəbula yazılan vətəndaşların müraciətləri tanınmış yazıçı və şairlərlə görüşlərin təşkili, kitabxanalara uşaqlar üçün intellektual oyunlara aid elektron nəşrlərin alınması, xalq teatrının repertuarına uyğun səhnə əsərlərinin çap olunması, Heydər Əliyev Mərkəzinin fondunun zənginləşdirilməsi, incəsənət məktəbində skripka sinfinin açılması barədə olub.

Qəbulda vətəndaşların müraciətlərinin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

**"Qəbələ"**

# 100 yaşın mübarək, Azərbaycan əsgəri

İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 yaşı tamam oldu.

1918-ci ilin mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə qəbul edilən bəyannamədə dövlətin əsas atributlarından olan milli ordunun təşkilinin vacibliyi qeyd olunub. Həmin müddəaya uyğun olaraq 26 iyun 2018-ci ildə ilk əlahiddə Azərbaycan Korpusu yaradılıb. Azərbaycanda ordu yaradılması çox böyük çətinliklərlə üzləşirdi. Ona görə ki, Çar Rusiyası dövründə azərbaycanlılar orduya çağırılmırdı. Başqa sözlə desək azərbaycanlılara silah etibar edilmirdi. Buna görə də Azərbaycanda milli hərbi kadrlar yox dərəcəsində idi. Təbii ki, belə olduqda ordunu təşkil etmək üçün silah və ondan istifadə edə bilən kadrlar da çatışmırdı. Bütün bunlara baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti silahlı qüvvələrin yaradılmasına çox böyük önəm verirdi. Qısa müddətdə 30-40 minlik ordu yaradıldı. Azərbaycan Milli Ordusunun yeni yaranmasına və kifayət qədər təcrübəsinin olmadığına baxmayaraq silahlı qüvvələrimiz Qarabağda və ermənistanla sərhəd olan digər ərazilərimizdə torpaqlarımıza təcavüz edən düşmənlərə qarşı qələbələrlə yadda qalan hərbi əməliyyatlar həyata keçirirdi.

1920-ci ilin aprel ayının 28-də Sovet Rusiyasının hərbi müdaxiləsi ilə Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoyuldu. Milli ordu buraxıldı.

Azərbaycanda sovet hakimiyyəti illərində azərbaycanlı gənclər orduya çağrılsa da onların əksəriyyəti döyüş hissələrində yox, əsasən tikinti batalyonlarında xidmətə cəlb olunurdular.

1969-cu ildə ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin taleyini düşünərək milli zabit kadrlarının hazırlanmasına böyük əhəmiyyət verdi. Hər il Azərbaycandan yüzlərlə gənc SSRİ-nin müxtəlif ali hərbi məktəblərinə göndərilir. Bakıda Cəmşid Naxçıvanski adına hərbi təmayüllü orta məktəb açıldı. Ulu öndərin uzaqgörənliyinin nəticəsidir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ordunun yaradılması üçün kifayət qədər milli zabit kadrları vardı.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində başladığı böyük quruculuq işlərini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daimi qayğısı sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri möhkəm maddi- texniki bazaya, müasir silahlara, ordu üçün lazım olan hər cür ləvazimata malik durumdadır.

Bunun nəticəsidir ki, quru qoşunlarından, hərbi hava və hərbi dəniz qüvvələrindən, eləcə də xüsusi təyinatlı birləşmələrdən ibarət Azərbaycan Silahlı Qüvvələri regionda ən güclü ordu sayılır. Ordumuz bu gücünü 2016-cı ilin aprel, bu ilin may aylarında düşmənə üzərində möhtəşəm əməliyyatları ilə sübut etmişdir.

Artıq düşmənlərimiz və onların havadarları başa düşürlər ki, Azərbaycan Silahlı Qüvvələri istənilən an işğal altındakı torpaqlarımızı azad etməyə qadirdi.

100 yaşın mübarək, Azərbaycan əsgəri

**Qüdrət SƏMƏDOV.**

# "Dəyirmi masa" təşkil olunub

***Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Qəbələ Rayon İcra Hakimiyyəti və Alban-Udi Xristian dini icmasının birgə təşkilatçılığı ilə iyunun 21-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Cümhuriyyət dövründə multikulturalizm və dini etiqad azadlığı" mövzusunda "dəyirmi masa" keçirilib.***

İdarə, müəssisə və ictimaiyyət nümayəndələrinin qatıldığı tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri, RİH başçısının müavini Ətayə Osmanova açaraq 2018-ci ilin Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi və ölkə başçısının Sərəncamının icrası ilə bağlı rayonda keçirilən genişmiqyaslı ideya-siyasi, maarifləndirmə tədbirləri barədə iştirakçılara məlumat verib. Çıxışında Ətayə Osmanova "Dəyirmi masa"nın maraqlı mövzuya həsr olunduğunu və tədbir iştirakçılarının da açıq fikir mübadiləsinə fəal qoşulacağına əminliyini vurğulayıb.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun böyük elmi işçisi, BDU-nun müəllimi, tarix elmləri doktoru, professor Məhəbbət Paşayevanın "Cümhuriyyət Parlamentində multikulturalizm", Alban-udi xristian



icmasının sədri Robert Mobilinin "Cümhuriyyət Hökumətində din və dini etiqad azadlığı", Bilik Fondunun Qəbələ rayonu üzrə nümayəndəsi, 2 №-li şəhər tam orta məktəbin direktoru Təranə Səlimovanın "Müasir Qəbələnin multikultural mənzərəsi" mövzularda məruzələrindən sonra rayon ziyalılarının iştirakı ilə ətraflı fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, 23 ay ömür sürmüş Cümhuriyyə Hökumətində "Himayədarlıq və dini etiqad", sonra isə "Maarif və dini etiqad" nazirlikləri fəaliyyət göstərib. Parlamentdə din və millətlər məsələsi dəfələrlə müzakirə olunub, bu sahədə bir çox dövlətlərdə mövcud olmayan sivil qərarlar qəbul edilib, bütün dövlətlərlə açıq münasibət qurmağa səy göstərilib. ABŞ, Böyük Britaniya, İtaliya, Belçika, İran, İsveç, Polşa, Finlandiya, Yunanıstan, Danimarka və digər ölkələrin Bakıda diplomatik nümayəndəlikləri açılıb. Parlamentdə dini mənsubiyyətindən asılı olmayaraq, ölkədə yaşayan əksər xalqların–erməni, gürcü, polyak və yəhudilərin təmsil edilməsinə imkan yaradılıb, onlar üçün deputat yeri ayrılıb. Cümhuriyyət Hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etsə də, dövlət idarələrində müəyyən müddət ərzində rus dilinin işlənməsinə də icazə verilib, Parlamentdə digər millətlərin nümayəndələrinin rus dilində çıxış etmələri də məqbul hesab edilib.

Çıxışlarda müasir Azərbaycanın dünyaya multikultural, tolerantlıq örnəyi olduğu da faktlarla diqqətə çatdırılıb. Qəbələnin bu cəhətdən örnək olduğu qeyd edilib. Dünyada xristian udilərin kompakt şəkildə yaşadığı, dilini, dini etiqadını qoruyub saxladığı yeganə məkanın Qəbələdə olduğu qeyd olunub.

Sonra mühazirəçilər tədbir iştirakçılarının suallarına cavab veriblər.

Bilik Fondunun ölkədaxili layihələr sektorunun müdiri Hacı Abdulla Fondun yarandığı ilk günlərdən Qəbələ Rayon İcra Hakimiyyəti və Alban-Udi Xristian dini icması ilə sıx əməkdaşlığın qurulduğunu, yaddaqalan maarifləndirmə tədbirlərinin həyata keçirildiyini, Nic qəsəbəsində udi gənclər üçün Azərbaycan dili kursunun fəaliyyət göstərdiyini xatırladıb.

Fondun təşkilatçılığı ilə keçirilmiş "Cümhuriyyət tariximiz-qürurumuzdur" respublika bilik müsabiqəsində qalib gələn Qəbələ məktəbliləri Lalə Ağayeva, Ayşən Kərimli və Ayşən Qurbanovaya Bilik Fondunun sertifikatları təqdim olunub.

Tədbirdə xatirə şəkilləri çəkdirilib.

**"Qəbələ"**

**Səfa Aslanov (foto).**

# Ekskursiya təşkil ediləcək

*İyulun 3-dən 10-dək Azərbaycanda ilk dəfə ABŞ-dan olan turistlər üçün mədəniyyət və kulinariya aləminə ekskursiya təşkil ediləcək.*

*Paytaxt Bakıdan başlayacaq ekskursiya ölkənin bir neçə regionunda, o cümlədən Qəbələ rayonu da daxil olmaqla davam etdiriləcək. Proqramda müxtəlif mədəniyyət və kulinariya ənənələrini qoruyub saxlayan rayonun Nic qəsəbəsinin irsi ilə yaxından tanışlıq nəzərdə tutulub. Amerikalı səyyahlardan və könüllülərdən ibarət kiçik qrup üçün ekskursiya onların Azərbaycan mətbəxinin və mədəniyyətinin xüsusiyyətləri ilə tanış olmaları üçün təşkil edilir.*

*Turne çərçivəsində restoranlarda baş aşpazlar, bölgələrdəki evlərdə yerli aşpazlar tərəfindən ustad dərsləri keçiriləcək, yeməklərin bişirilməsi qaydası təqdim ediləcək.*

*Qonaqlar yerli bazarlara, şərab zavodlarına, tarixi yerlərə, muzeylərə, sənətkar emalatxanalarına gedəcək, rəssamlarla görüşəcək və digər mədəniyyət tədbirlərinə qatılacaqlar.*